# İnformatika fənnindən dərs nümunəsi

**Gülnar VƏLİYEVA,**
*Ağdaş şəhər N.Gəncəvi adına 2 nömrəli tam orta məktəbin informatika müəllimi*



**VIII sinif**

*Mövzu:* Mətn redaktorunun obyektləri

*Standart:* 3.2.2. Mətn redaktorunda obyektlərlə işləmək bacarığın nümayiş etdirir.

*Məqsəd:*

- Mətn sənədini redaktə etmək bacarığını nümayiş etdirir.
- Mətn sənədində multimedia alətlərindən istifadə etmək bacarığını nümayiş etdirir.

Mətn sənədində düstur, cədvəl və diaqramdan istifadə etmək bacarığını nümayiş etdirir.

*Dərsin tipi:* deduktiv

*İş forması:* kiçik qruplarla və kollektivlə iş

*İş üsulu:* müzakirə, karusel, təqdimat,

*Resurslar:* VIII sinif "İnformatika" dərsliyi, iş vərəqləri

*Motivasiya:*

Bir nəfər poçtalyon qismində sinfə daxil olur və müəllimə 4 ədəd fərqli (göy, qırmızı, yaşıl, sarı) rənglərdə qutu təqdim edir. Kim olduğunu, qutunun kimdən gəldiyini söyləmədən sinfi tərk edir. Mən təəccüblənərək, xəbərsiz şəkildə, həyəcanlı baxışlarla auditoriyaya müraciət edirəm:

- Uşaqlar, bu qutular nədir? Sizin xəbəriniz varmı? Sizcə, bu qutularda nələr ola bilər? Kim göndərə bilər?

Eyni təəccüb və həyəcanla sinfin fikirlərini alır və onlardan xahiş edirəm ki, bu qutuları açmaqda mənə kömək etsinlər.

Qruplar qutuların rənginə görə rəngli kağızlarla 4 yerə bölünür, qutular uyğun olaraq paylanır.

Hər qrup qutunu açır, içindən 1, 2, 3, 4 rəqəmləri ilə sıralanmış şəkildə dörd məktub çıxır. Qutunun qapağına "məktubları sıra ilə oxuyun" yazılıb.

Şagirdlər birinci məktubu açıb oxumağa çalışsalar da heç nə başa düşmürlər. Məktub MS Word proqramında hazırlanıb, çap edilib, ancaq məktubdakı sözlər, cümlələr, cədvəllər, şəkillər çox qarışıq və qüsurlu yerləşdirildiyindən şagirdlər oxuya bilmirlər. Və ikinci məktubu açırlar. İkinci məktubda yazılıb: " Birinci məktubda yazılan mətndə dəyişiklik etmək üçün kompüterdə hansı redaktə proqramlarını tanıyırsınız?".

Qruplardan ibtidai sinifdən bu günə kimi hansı mətn redaktoru proqramlarını tanıdıqları barədə məlumat alıram. Və tədqiqat sualını elan edirəm.

*Tədqiqat sualı:*

Mətn sənədində dəyişiklik etmək üçün MS Word mətn redaktorunun hansı obyektlərindən istifadə olunur?

Dərs boyu şagirdlər mətn redaktoru və onun obyektləri barədə araşdırma aparırlar. Bu səbəbdən tədqiqat sualını belə müəyyənləşdirib, motivasiyanı tamamlayıram.

Motivasiyanı belə qurmaqda məqsədim şagirdlər arasında gözlənilməz, maraq oyadan, həyəcanlandıran, müəmmalı vəziyyət yaratmaqla onları düşünməyə vadar etməkdir. Ancaq dördüncü məktub da hələ açılmadığına görə həyəcan dərsin sonuna kimi davam edir.

Tədqiqat sualını elan etdikdən sonra uşaqlar qutudakı 3-cü məktubu açırlar. Üçüncü məktubda iş vərəqləri olur və məktubun üst hissəsində "bu tapşırıqları həll etdikdən sonra dördüncü məktubu aça bilərsiniz" sözləri yazılıb.

Uşaqlara bildirirəm ki, mən də dördüncü məktubda nə yazıldığını oxumağı səbirsizliklə gözləyirəm. Bu səbəbdən tapşırıqları bitirmək üçün onlara 7-8 dəqiqə vaxt verdiyimi deyirəm. Və tapşırıqların yerinə yetirilməsi zamanı qrupları aşağıdakı meyarlara görə qiymətləndirəcəyimi elan edirəm:

| Qrup işlərinin qiymətləndirilməsi | | | | |
|---|---|---|---|---|
| Qruplar / Meyarlar | "Cədvəl" | "Düstur" | "Şəkil" | "Diaqram" |
| Vaxta nəzarət edir | | | | |
| Əməkdaşlıq edir | | | | |
| Dinləyir | | | | |
| Tapşırığı düzgün yerinə yetirir | | | | |
| Ümumi nəticə | | | | |

*Tədqiqatın aparılması:*

Şagirdlərin ibtidai siniflərdən mətn redaktorlarında işləmələrinə baxmayaraq, VIII sinifdə də bu bacarıqlarının yoxlanması və bəzi əməliyyatların yada salınması məqsədəuyğundur. Bu səbəbdən hər bir qrupa məktub qutusuna mətnin redaktə olunması ilə bağlı kiçik mətnlər yerləşdirmişəm. Mətnlər eyni zamanda həmin qrupun ikinci tapşırığının hazırlanması barədə məlumatdır. Şagirdlər həm mətni oxuyub redaktə edəcəklər, həm də mövzu ilə bağlı daha geniş biliklərə malik olacaqlar. Mətn redaktorunda işləyərkən şagirdlər həm Microsoft Office paketinin MS Word mətn redaktoru və həm də OpenPffice.org Writer proqramından istifadə edə bilərlər.

Şagirdləri müəyyən problemi həll etmək üçün qruplarda birləşdirirəm. Bu prosesdə onların müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və birgə fəaliyyət bacarıqlarını inkişaf etdirmək imkanı yaranır.

Tədqiqat zamanı qruplar elan olunmuş vaxt ərzində təlimin məqsədinə uyğun qoyulmuş tapşırıqları həll edir, yeni faktlar öyrənir, sualların cavablarının tapılması gedişində düşünmək və yeni bilgiləri kəşf etmək üçün münasib şərait yaranır.

Tapşırıqlar aşağıdakı kimi olur:

*"Diaqram" qrupu:*

1. İş vərəqində olan mətn sənədini redaktə edin.
2. İşğal olunmuş rayonların cədvəlini hazırlayın, ərazilərinin diaqramını qurun.

*"Düstur" qrupu:*

1. İş vərəqində olan mətn sənədini redaktə edin.
2. Kvadrat tənliyə aid verilmiş misalı həll edin, proqramın düstur obyektlərinin imkanlarından istifadə edərək misalı mətn sənədinə yerləşdirin.

*"Cədvəl" qrupu:*

1. İş vərəqində olan mətn sənədini redaktə edin.
2. Mətn sənədini redaktə edərkən istifadə etdiyiniz alətlər və onların iş prinsipləri haqqında cədvəl hazırlayın.

*"Şəkil" qrupu:*

1. İş vərəqində olan mətn sənədini redaktə edin.
2. Mətn sənədinə hər hansı bir şəkil obyektini yerləşdirin, həmin şəklin parametrlərindən ibarət cədvəl hazırlayın.

*İnformasiyanın müzakirəsi:*

Yeni əldə edilmiş informasiyanı sistemləşdirmək və qrupların hazırladıqları təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaq üçün köməkçi suallardan istifadə etməklə əldə olunmuş faktların məqsədyönlü müzakirəsini təşkil edirəm. Problemin aşkar edilməmiş hissələrinə aydınlıq gətirir, bütün şagirdlərin prosesə fəal cəlb edilməsi üçün müzakirə üsulundan istifadə edirəm. Müzakirəni bütün siniflə aparıram. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirədə mövzuya aid "Mətn sənədinin hansı obyekləri var?", "Şəkli necə əlavə etdiniz?", "Cədvəl yaratmaq üçün hansı menyu komandasından istifadə etdiniz?", "Düsturların əlavə edilmə ardıcıllığı necədir?", "Sizin fikrinizcə, bu obyektlər bizə daha harda lazım ola bilər?" kimi suallardan istifadə edirəm.

*Ümumiləşdirmə və nəticələrin çıxarılması:*

Nəticəyə gəlmək üçün karusel üsulundan istifadə edərək oyun hazırlayıram. Dərsi əhatə edən bir neçə sual və cavab lövhəyə qarışıq yerləşdirilir, hər bir qrup növbə ilə saat əqrəbi istiqamətində beş saniyə vaxt ərzində sualın cavabını tapır. Qalan qruplara vaxta nəzarəti nizamlamaq üçün beşə qədər saymağı tapşırıram. Düzgün və səhv cavablar elan olunduqca lövhədə qeyd olunur, bütün sualların cavabları uyğun olaraq qarşı-qarşıya yığılır, lövhədə mövzunu tam əhatə edən bir görüntü, sxem yaranır. Nəticədə mövcud tədqiqat sualının cavabı aydınlaşır, əldə edilmiş ideyanın tədqiqat sualı və şagirdlərin ilkin fərziyyələri ilə müqayisəsi təşkil edilir. "Biz bu dərsdə nə öyrəndik?" sualı üzərində düşünərkən məsələlər təlimin məqsədi ilə əlaqələndirilir. Yeni bilikləri məhz özlərinin aşkar etməsi ilə bağlı ümumi sevinclərini bölüşürlər.

Nəticələr çıxarıldıqdan sonra şagirdlər dördüncü məktubu açırlar. Sonuncu məktubda yazılıb: "Məktublarımızı oxuduğunuza, tapşırıqların həll edilməsində göstərdiyiniz təşəbbüsə görə sizə minnətdarlığımızı bildiririk. Tapşırıqların necə həll olunması ilə bağlı bizə kömək göstərməyinizi xahiş edir, sizlərdən məktublarımıza cavab gözləyirik. Hörmətlə, VIII A sinfi"

*Yaradıcı tətbiqetmə:*

Şagirdlərə fərdi yanaşmaq, müstəqil təlim, tədqiqatçılıq və yaradıcılıq bacarıqlarını inkişaf etdirmək və vaxt baxımından yaradıcı tədbiqetmə tapşırığını fərdi verirəm. Əgər vaxt məhdudiyyəti olarsa, həmin tapşırığı evdə yerinə yetirməyi tapşırıram. Hər bir şagird fərdi olaraq mətn redaktorunda keçdiyimiz bütün mətn sənədi obyektlərindən istifadə etməklə məktub hazırlayır, digər paralel VIII sinifdə oxuyan şagirdlərə verir. Eyni zamanda, həmin məktubları mənim elektron poçtuma göndərirlər. Ev tapşırığının qiyməti onlayn şəkildə bildirilir. Evdə sərbəst iş görmək şagirdlərin dərsdə alınmış bilik, bacarıq və vərdişlərinin möhkəmləndirilməsinə xidmət edəcək. Eyni zamanda, şagirdlərin texnologiyaya və internetə olan maraqlarını nəzərə almaqla məktubların, yəni tapşırıqların onlayn şəkildə mənə göndərilməsi məsələ ilə bağlı daha sərbəst fikirlərin ortaya qoyulmasına imkan yaradacaq.

*Qiymətləndirmə və refleksiya:*

Şagirdlərin vaxtında öz qüsurlarını və nailiyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək üçün aşağıdakı cədvələ əsasən qiymətləndirirəm.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mətn sənədinə şəkil əlavə etməkdə çətinlik çəkir. | Mətn sənədinə şəkli müəllimin köməyi ilə əlavə edir. | Mətn sənədinə şəkli əlavə edərkən səhvlər buraxır. | Mətn sənədinə şəkli düzgün əlavə edir. |
| Mətn sənədinə cədvəli əlavə etmədə çətinlik çəkir. | Mətn sənədinə cədvəli müəllimin köməyi ilə əlavə edir. | Mətn sənədinə cədvəli əlavə edərkən kiçik səhvlər buraxır. | Mətn sənədinə cədvəli düzgün əlavə edir. |
| Mətn sənədinə verilmiş düsturu əlavə etməkdə çətinlik çəkir. | Mətn sənədinə verilmiş düsturu müəllimin köməyi ilə əlavə edir. | Mətn sənədinə verilmiş düsturu əlavə edərkən kiçik səhvlərə yol verir. | Mətn sənədinə verilmiş düsturu düzgün əlavə edir. |